# «Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə»nin və «Dənizçinin şəxsiyyət sənədinin spesifikasiyası, təsviri və nümunəsi»nin təsdiq olunması barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

«Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə»nin və «Dənizçinin şəxsiyyət sənədinin spesifikasiyası, təsviri və nümunəsi»nin təsdiq olunması barədə» Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

1.1. qüvvədə olan qanunvericilik aktlarının «Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə»nin və «Dənizçinin şəxsiyyət sənədinin spesifikasiyası, təsviri və nümunəsi»nin təsdiq olunması barədə» Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. öz səlahiyyətləri daxilində «Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə»nin və «Dənizçinin şəxsiyyət sənədinin spesifikasiyası, təsviri və nümunəsi»nin təsdiq olunması barədə» Azərbaycan Respublikasının Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki, «Dənizçinin şəxsiyyət sənədi haqqında Əsasnamə»nin 2-ci, 6-cı bəndlərində, 8-ci bəndinin birinci cümləsində, 9-cu bəndinin birinci və ikinci abzaslarında, 10-cu bəndinin birinci cümləsində, 11-ci, 12-ci, 13-cü bəndlərində, 15-ci bəndinin birinci və ikinci abzaslarında, 16-cı bəndində nəzərdə tutulmuş «müvafiq icra hakimiyyəti orqanı»nın səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Dəniz Administrasiyası həyata keçirir.

3. Bu Fərman dərc edildiyi gündən qüvvəyə minir.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 11 mart 2008-ci il***

***№ 733***

***«Respublika» qəzetində dərc edilmişdir (13 mart 2008-ci il, № 56)***
***(«VneshExpertService» LLC).***

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional

***«Azərbaycan Respublikasının Qanunvericilik Toplusu»nda dərc edilmişdir (31 mart 2008-ci il, № 3 (129), maddə 182) («VneshExpertService» LLC).***

*© VneshExpertService LLC*

Created with
nitroPDF professional
download the free trial online at nitropdf.com/professional